İYUL-2020

# TƏHLİL

## ERMƏNİSTANIN HƏRBİ QARŞIDURMAYA ƏL ATMASININ İQTİSADİ VƏ SOSİAL SƏBƏBLƏRİ

Ermənistanda 2008-ci ildən sonra 2019-cu ildə ən yüksək iqtisadi artım əldə edildikdən sonra Ermənistan hökumətinin nümayəndələri və onun başçısı iqtisadi artımın növbəti illərdə daha böyük həcmdə olacağı ilə bağlı fikirlər səsləndirməyə başladılar. Iqtisadiyyatda əldə edilmiş nəticələr Ermənistan hökumətini çox sevindirirdi. Ona görə ki, 2018-ci ildə Paşinyanın hakimiyyətə gəlməsində iqtisadi problemlərin rolu böyük olmuşdu. Belə ki, ölkəni bürüyən sosial və iqtisadi problemlər əhalinin artıq bezdirmişdi və ona görə əhali nümayişlərə başlayaraq hökumətin dəyişməsinə çalışırdı. Belə olan vəziyyətdə nümayişlərin başçısı kimi Paşinyanın vətəndaşlara iqtisadiyyatın inkişafı, işsizlik, korrupsiyanın aradan qaldırılması və kiçik biznesin inkişafı ilə bağlı müxtəlif vədlər verdi. Buna görə də hakimiyyətə gəldikdən sonra Paşinyanın əsas məqsədi iqtisadi və sosial problemləri həll etmək və öz vədlərinə sadiq qalmaq idi. Ona görə də iqtisadi və sosial  problemlərin həlli Paşinyan hakimiyyətinin davamlılığının əsasını təşkil edir.

Lakin, Ermənistan hökumətinin iqtisadi sahədə həyata keçirdiyi tədbirlər yarımçıq qaldı və 2020-ci ilin əvvəlindən başlayaraq COVİD-19 virusunun yayılması bütün ölkələr kimi Ermənistan iqtisadiyyatına da əsaslı formada təsir etməyə başladı. Virusun yayılmasının qarşısını almaq məqsədilə fövqəladə vəziyyətin elan edilməsi  iqtisadiyyatın demək olar ki, bütün əsas sahələrinin fəaliyyətinin dayanmasına gətirib çıxardı. Sonradan tətbiq edilən qadağalar müəyyən qədər yumşaldılsa da bu iqtisadiyyatın dirçəlməsinə imkan yaratmadı. Pandemiya dövründə iqtisadi problemlərin yayılması təbiidir və bu bir çox ölkələrdə baş verir. Lakin, Ermənistan hökuməti pandemiyanı səmərəli idarə edə bilmədiyindən bu daha böyük iqtisadi fəsadların formalaşmasına imkan yaradır. Müqayisə üçün deyə bilərik ki, əhalinin hər milyon nəfərinə düşən COVİD-19-a görə ölənlərin sayı Ermənistanda 213, Azərbaycanda 34, Gürcüstanda 4, Türkiyədə 65, Rusiyada 84 nəfərdir. Göründüyü kimi bu göstərici Ermənistanda regionun digər ölkələri ilə müqayisədə dəfələrlə çoxdur. Bu da iqtisadiyyatın bərpa edilməsi imkanlarını əhəmiyyətli sürətdə azaldır.

Həm virusa yoluxmaların və ölüm hallarının çox olması, həm də yaranan iqtisadi problemlər Ermənistanda sosila narazılıqların artmasına gətirib çıxarır. Bu isə hazırkı hökumətin əsas  seçici kütləsi arasında populyarlığının azalmasına səbəb olur. Sosial və iqtisadi problemləri həll etmək

vədləri ilə haimiyyətə gələn Paşinyan hazırda bu işin öhdəsindən gələ bilmir və bu da yeni hökumətə olan etibarın azalmasına yol açır. Bununla yanaşı Ermənistanda böyük siyasi qarşıdurmalar da davam etməkdədir. Özünü demokratik hökumət kimi göstərən Ermənistan hökuməti siyasi opponentlərə və müxalifətə qarşı təqiblər həyata keçirir və onlarə həbs etdirir. Eyni zamanda konstitusiyaya dəyişiklik etmək və konstitusiya məhkəməsinin hakimlərini dəyişmək cəhdləri, əvvəlki prezidentlərə qarşı açılan cinayət işləri də siyasi vəziyyəti daha da gərginləşdirərək Paşinyan hakimiyyətinin heç də demokratik hakimiyyət olmadığını ortaya qoymuş olur.  Bu siyasi proseslər hazırkı cətin vəziyyətdə sosial narazılığın daha da artmasına imkan yaradır.

Bütün qeyd edilən problemlərin mövcudluğu şəraitində sosial narazılğın daha da kəskinləşməsinin qarşısını almaq üçün Ermənistan hökuməti əhalinin fikrini yayındırmaq məcburiyyətində idi. Hazırkı vəziyyətdə isə əhalinin diqqətini yayındırmaq üçün Ermənistanın əlində olan ən səmərəli vasitə sözsüz ki, Azərbaycanla mövcud olan münaqişə və hərbi əməliyyatlardır. Sosial vəziyyət sürətlə gərginləşdiyindən Ermənistanın bu vasitəyə əl atması çox uzun zaman almadı və Ermənistan silahlı qüvvələri iyulun 12-dən etibarən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhəddinə Tovuz rayonu istiqamətində hücumlar təşkil etməyə başladı və döyüşlər fasilələr ilə sonrakı günlərdə də davam etdi. Bu hücumların təşkil edilməsinin siyasi səbəbləri olsa da yaranmış sosial narazılığı azaltmaq məqsədilə əhalinin fikrinin yayındırılması əsas səbələrdən biri kimi çıxış edir. Ermənistanın hərbi qarşıdurmaya getməsinin arxasında dayanan iqtisadi səbələri aydınlaşdırmaq üçün Ermənistan iqtisadiyyatında müxtəlif istiqamətləri üzrə gedən mənfi prosesləri nəzərdən keçirək.

Ermənistanın Statistika Komitəsinin məlumatlarına əsasən yanvar-aprel aylarında Ermənistanda Ümumi Daxili Məhsul (ÜDM) ötən ilin eyni dövrü ilə müqayisədə 1.7% azalmışdır. Son aylarda isə bu azalma daha sürətlə getmişdir. Belə ki,  aprel ayında ÜDM-in həcmi mart ayı ilə müqayisədə 13.5%, ötən ilin aprel ayı ilə müqayisədə isə 17.2% azalmışdır. Ermənistan iqtisadiyyatında böyük paya sahib olan sənaye sahəsində isə məhsul buraxılışı isə apreldə mart ayı ilə müqayisədə 8.2%, ötən ilin aprel ayı ilə müqayisədə isə 8.6% azalmışdır. Xidmət sektorunda isə aprel ayında azalma 11.2%, 2019-cu ilin aprelinə nəzərən isə 16% təşkil etmişdir.

Ən böyük azalma isə tikinti sektorunda qeydə alınmışdır. Yanvar-aprel ayları ərzində tikinti sektorunda azalma ötən ilin eyni dövrü ilə müqayisədə 22% təşkil etmişdir. Aprel ayında isə azalma əvvəlki aya nəzərən 40.6%, ötən ilin aprel ayı ilə müqayisədə isə 51% təşkil etmişdir. Onu da nəzərə alsaq ki, Ermənistanda aşağı ixtisaslı kardların kənd təsərrüfatından sonra ən çox işlədiyi sahələrdən biri məhz tikinti sektorudur o zaman bu sahədə 50%-dən çox azalmanın qeydə alınması bu sektorda fəaliyyət göstərən işçilərin əksəriyyətinin işsiz və gəlirsiz qaldığını göstərir.

Ermənistanın daxili ticarətində də böyük azalma qeydə alınmışdır. Belə ki, 2020-ci ilin ilk 4 ayında daxili ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 8.6% azalmışdır. Aprel ayında isə azalma 29.4% təşkil etmişdir. Ötən ilin aprel ayı ilə müqayisədə isə azalma daha böyük 33.1% səviyyəsində olmuşdur. Daxili ticarətdə qeydə alınmış böyük azalma iqtisadi aktivliyin əhəmiyyətli dərəcədə azaldığını göstərir. Bu həm də əhalinin alıcılıq qabiliyyətinin kəskin azaldığını və bunun nəticəsində də məhsullara olan tələbatın da əsaslı şəkildə azaldığını göstərir.


Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan, Phone: (+994 12) 596-82-39, (+994 12) 596-82-41, E-mail: info@aircenter.az

Ümumilikdə isə ilin sonuna Avropa Yenidən Qurma və İnkişaf Bankının proqnozuna görə Ermənistan iqtisadiyyatı 3.5%-ə qədər daralacaqdır. Ermənistan hökuməti isə ilin sonuna 2% azalmanın olcağını proqnozlaşdırır. Lakin, ayrı-ayrı sektorlar üzrə müşahidə edilən əsaslı geriləmələr və virusun yayılması prosesinin davam etməsi onu deməyə əsas verir ki, ilin sonuna Ermənistan iqtisadiyyatının daralma səviyyəsi daha yüksək ola bilər və bu da hazırkı hökumət üçün əsaslı problemlərin yaranmasına yol aça bilər.

Ermənistan iqtisadiyyatının əsas maliyyə mənbələrindən biri də xaricdən daxil olan pul köçürmələridir. COVİD-19-un yayılması ilə bağlı digər ölkələrdə müşahidə edilən iqtisadi problemlər Ermənistana daxil olan pul köçürmələrinin də payını əhəmiyyətli sürətdə azaltmışdır. Belə ki, cari ilin ilk 5 ayında Ermənistana daxil olan pul köçürmələrinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 22.5% azalaraq 546.2 milyon ABŞ dollar (bundan sonra dollar) səviyyəsinə düşmüşdür. Rusiyadan Ermənistana daxil olan pul köçürmələri isə yanvar-may ayları ərzində əhəmiyyətli sürətdə, 31% səviyyəsində azalmışdır. Nəticədə, qeyd edilən dövr ərzində Rusiyanın pul köçürmələrində payı ötən ilin eyni dövrü ilə müqayisədə 50%-dən 44.5%-ə qədər azalmışdır. ABŞ-dan daxil olan pul köçürmələri isə yanvar-may aylarında cəmi 1.1% artmışdır. Halbuki, 2019-cu ilin ilk beş ayında ABŞ-dan daxil olan pul köçürmələri əvvəlki il ilə müqayisədə 36.8% artmışdı. Pul köçürmələri ilə bağlı müşahidə edilən azalmalar da Ermənistanda maliyyə problemlərinin artmasına və əhalinin alıcılıq qabiliyyətinin azalmasına imkan yaratmışdır.

Ermənistanda sosial narazılığın artmasına imkan yaradan əsas səbəblərdən biri də işsizlik səviyyəsinin yüksək olmasıdır. Pandemiyadan öncə də Ermənistanda işsizlik səviyyəsi yüksək idi (17.7%). Pandemiya isə işsizlik səviyyəsinin daha da artmasına yol açır və bu proses davam edəcəkdir. Hökumət nümayəndələrinin fikrincə pandemiyadan sonra işsizlik səviyyəsi 19%-ə çatacaqdır və bununla əlavə 40 min nəfər işsiz qalacaqdır. İşsizlik ən çox xidmət, tikinti və ərzaq sektorunda müşahidə ediləcəkdir. Lakin, hökumət bu statistikada Ermənistandan mövsümi işlərdə işləmək üçün xarici ölkələrə gedən vətəndaşları nəzərə almır hansılar ki, hazırda sərhədlər bağlı olduğundan xarici ölkələrə səfər edə bilmir. Statsitik rəqəmlər göstərir ki, hər il 50 mindən çox Erməni vətəndaşı qısa müddətli dövrdə mövsümi işlərdə işləmək üçün digər ölkələrə səfər edir. Bununla yanaşı ölkə daxilində qazın qiyməti ilə bağlı edilmiş dəyişikliklər nəticəsində Qazprom Ermənistan şirkətindən 3 mindən çox vətəndaşın işdən çıxarılacağı gözlənilir. Bunları da nəzərə alsaq Ermənistanda işsizlik səviyyəsinin əhəmiyyətli sürətdə artacağını görə bilərik. Bu isə sözsüz ki, ölkədə sosial gərginliyin artmasına və vətəndaşların hazırkı hökumətə qarşı münasibətinin dəyişməsinə səbəb olacaqdır.

Digər tərəfdən isə Ermənistan hökuməti tərəfindən iqtisadiyyata dəstək məqsədilə qəbul edilmiş proqramlar effektiv deyildir. Ermənistanın 20 anti-böhran proqramı həyata keçirməsinə baxmayaraq ümumilikdə proqramlar üçün cəmi 315 milyon dollar ayrılmışdır. Proqramın effektsizliyi ilə bağlı əsas məsələ proqramın kölgə iqtisadiyyatında işləyən vətəndaşları əhatə edə bilməməsidir. Hesablamalara görə Ermənistanda işçi qüvvəsinin 20%-i kölgə iqtisadiyyatında fəaliyyət göstərir. Bu isə böyük həcmdə işçi qüvvəsinin işsiz qalmasına və yardım ala bilməməsinə imkan yaradır. Eyni zamanda kiçik sahibkarlar da proqramların səmərəli olmamasından şikayət edirlər. Belə ki, sahibkarların əksəriyyəti alınan yardımları bank borclarını ödəmək üçün istifadə etmək məcburiyyətində olduqlarını və nəticədə yardım vəsaitləri ilə digər xərcləri qarşılaya


Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan, Phone: (+994 12) 596-82-39, (+994 12) 596-82-41, E-mail: info@aircenter.az

bilmədiklərini deyirlər. Nəticədə, həyata keçirilən proqramlar mövcud iqtisadi problemləri əsaslı şəkildə həll edə bilmədiyindən sosial narazılığın artmasına və hökumətin vətəndaşlara zəruri formada dəstək vermək iqtidarında olmaması fikrinin formalaşmasına imkan yaradır.

**Nəticə**

Beləliklə, Ermənistanda COVİD-19 müxtəlif sahələrdə əsaslı geriləmələr və problemlər yaratmaqdadır. Yaranmış iqtisadi problemlər işsizliyin əsaslı sürətdə artmasına və əhalinin maddi vəziyyətinin kəskin şəkildə pisləşməsinə səbəb olur. Hökumət tərəfindən atılan addımlar və həyata keçirilən proqramlar isə gözlənilən nəticələri vermir, yaranmış problemlərin həllinə və sosial narazılığın qarşısının alınmasına imkan yaratmır. Vurisin yayılmasının səmərəli şəkildə idarə edilə bilməməsi isə hökumətə iqtisadiyyatı tam olaraq açmaq imkanı yaratmır. Bu isə sosial narazılığın getdikcə dərinləşməsinə və hakimiyyət üçün təhdidə çevrilməsinə səbəb olur. Belə olan halda Ermənistan hökuməti diqqəti yayındırmaq üçün provakasiyalara əl atmaq və Azərbaycan ilə hərbi münaqişəyə getmək məcburiyyətində qaldı. Azərbaycanı hücum edən tərəf kimi göstərməklə isə hökumət yalnız diqqəti yayındırmır, eyni zamanda onların təhlükə altında olduğunu göstərməklə əhali arasında qorxunu artırmaq istəyir. Bu isə əhalinin sosial problemləri unutmasına və bütün diqqəti gedən döyüşlərə yönəltməsinə gətirib çıxarır. Lakin, döyüşlər vasitəsilə Ermənistan hökumətinin diqqəti yayındırmaq cəhdləri müvəqqəti xaraketer daşıyır. Ona görə ki, pandemiyanın təsiri ilə yaranmış dərin iqtisadi problemlər hələ uzun müddət davam edəcəkdir və qısa müddətdən sonra əhali döyüşləri unudacaq və onların diqqəti hər gün davam edən maddi problemlərə yönələcəkdir. Ona görə də deyə bilərik ki, cari və qarşıdan gələn il Ermənistan hökuməti üçün sınaq olacaqdır.

**Müəllif: Orxan Bağırov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

*Yazıda əks olunmuş fikirlər müəlliflərə məxsusdur və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin mövqeyini əks etdirməyə bilər.*



Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan, Phone: (+994 12) 596-82-39, (+994 12) 596-82-41, E-mail: info@aircenter.az